# IRAVAN TEACHERS' SEMINARY AND NEW TYPE GENESIS OF PUBLIC-EDUCATIONAL MOVEMENT

**Hasan Bayramov**

Baku Girls University,
Head of the Department of Pedagogy,
doctor of pedagogical sciences, professor
E-mail: bayramov.hasan@mail.ru
https://orcid.org/0000-0003-2415-0284

**Abstract.** The article evaluates the national struggle of the Azerbaijani people against the «Armeni anization revival» of the Iravan khanate from the historical and pedagogical perspective, as well as the process of formation of the social-educational movement. Determining the genesis of the religious and secular organization of Iravan by Azerbaijanis, who are the local population of Iravan Khanate, allows determining the influence of the Nakhchivan-Tabriz geocultural line on the struggle of Azerbaijanis for national interests. It is noted that the process of transformation from Muslim ethnic-religious identity to Tatar-Turkish, from there to Azerbaijani-Turkish, and finally to Azerbaijani ethnic national identity was the main rock of the national struggle carried out by intellectuals of this period with great force. This process in itself was the driving force of the historical mission in the formation of a new type of national enlightenment movement for two centuries and then in the modernization of national thought.

**Keywords**: Iravan seminary, public-enlightenment movement, the genesis of the process, national struggle, Muslim-Turkish population**.**

**To cite this article:** Bayramov H. (2022). Iravan Teachers' Seminary and new type genesis of public-educational movement. *Journal of Preschool and Primary Education*, Special issue – Iravan Teachers' Seminary, 2 (2022). pp. 101-119.
**Article history:** received – 13.07.2022; accepted – 26.08.2022

# İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI VƏ YENİ TİPLİ İCTİMAİ-MAARİFÇİ HƏRƏKATIN GENEZİSİ

**Həsən Bayramov**

Bakı Qızlar Universiteti,
Pedaqogika kafedrasının müdiri,
pedaqoji elmlər doktoru, professor
E-mail:bayramov.hasan@mail.ru
https://orcid.org/0000-0003-2415-0284

**Annotasiya.** Məqalədə tarixi-pedaqoji prizmadan İrəvan xanlığının "erməniləşdirilməsi"nə qarşı Azərbaycan xalqının çar Rusiyası və sovet dövründə apardığı milli mübarizə araşdırılır, həmçinin ictimai-maarifçi hərəkatın formalaşması prosesi izlənir. İrəvan xanlığının yerli əhalisi olan azərbaycanlılar tərəfindən İrəvanın dini və dünyəvi təşəkkülünün genezisinin müəyyən edilməsi Naxçıvan – Təbriz geomədəni xəttinin azərbaycanlıların milli maraqlar uğrunda mübarizəsinə təsirini müəyyən etməyə imkan verir. Qeyd olunur ki, müsəlman etnik-dini kimliyindən tatar-türk, oradan da Azərbaycan-türk və nəhayət, azərbaycanlı etnik milli kimliyinə transformasiya prosesi məhz bu dövr ziyalılarının çox böyük qüvvə ilə həyata keçirdikləri milli mücadilənin əsas qayəsini təşkil etmişdir. Bu proses özlüyündə iki əsrlik yeni tipli milli maarifçilik hərəkatının təşəkkülündə və sonra milli düşüncənin modernləşdirilməsində tarixi missiyanın hərəkətverici qüvvəsi olmuşdur.

**Açar sözlər:** İrəvan Seminariyası, ictimai-maarifləndirmə hərəkatı, prosesin genesizi, milli mübarizə, müsəlman-türk əhalisi.

**Məqaləyə istinad:** Bayramov H. (2022). İrəvan Müəllimlər Seminariyası və yeni tipli ictimai-maarifçi hərəkatın genezisi. *«Məktəbəqədər və ibtidai təhsil»*, Xüsusi buraxılış – İrəvan Müəllimlər Seminariyası, 2 (2022). səh. 101-119.
**Məqalə tarixçəsi:** göndərilib – 13.07.2022; qəbul edilib – 26.08.2022.

## Giriş / Introduction

Azərbaycanın məktəb və pedaqoji fikir tarixində çar Rusiyası dövrü təhsilinin özünəməxsus yeri vardır. Bu dövr, hər şeydən əvvəl, əsrlər boyu davam edən şərq təhsilindən yeni tipli, rusdilli dünyəvi təhsilə keçid, onun təşəkkülü və inkişafı ilə xarakterizə olunur. Şərq təhsil tipinin ölkəmizdə var olduğu dövrdə ictimai-humanitar düşüncədə bütün istiqamətlər üzrə dominantlıq o dərəcədə güclü olmuşdur ki, o, uzun müddət etnik kimliyində təmsilçisi olmuş, milliyyət anlayışına adekvat olaraq, müsəlman kimliyi formasında cəmiyyətin maarifçi-ictimai ünvanını təmsil etmişdir.

Çar Rusiyasının işğalı ilə bir-birini əvəz edən qəza məktəbləri, progimnaziyalar, gimnaziyalar, real gimnaziyalar, nəhayət, müəllim seminariyaları rus-tatar maarifçiliyinə tarixi transformasiya sayəsində müsəlman dini kimliyindən tatar-türk etnik kimliyinə keçidlə yeni milli maarifçiliyin başlıca nəzəri qaynaqlarını təşkil etmişdir. Sonralar rus-tatar təhsil forması uzun müddət bu missiyanı uğurla daşımış, rus dilli və ana dilli maarifçilərimiz tərəfindən Məhəmməd ağa Şahtaxtinskinin “Şərqi-Rus” qəzetində başlatdığı Azərbaycan-azərbaycanlı-türk kimliyi haqqında müzakirələr birinci respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin adı olaraq, yeni dövlət etnik kimliyi səviyyəsinə qaldırılmışdır. Sonralar bu, Sovet imperiyası dönəmində “Azərbaycan (türk) Sovet Sosialist Respublikası” formatında yeni məzmun almış, nəhayət, üçüncü respublikanın – Azərbaycan Respublikasının simasında azərbaycançılıq formatında və latın əlifbasına keçidlə yeni quruculuq prosesinin başlıca nəzəri-ideoloji qaynağına çevrilmişdir.

## Əsas hissə / Main part

***İrəvan və Qori müəllimlər seminariyaları: paralellər.*** Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin İrəvan Müəllimlər Seminariyasının 140 illiyi ilə bağlı 29 dekabr, 2021-ci il tarixli sərəncamında haqlı olaraq yazılır: “İrəvan şəhəri azərbaycanlıların köklü yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmışdır. Şəhərdə Azərbaycan xalqına məxsus son dərəcə zəngin ədəbi-mədəni mühit formalaşmışdı. İrəvan xanlığı çar Rusiyasının tərkibinə qatıldıqdan sonra burada dünyəvi təhsilə xüsusi diqqət yetirilməsində həmin mühit mühüm rol oynamışdır. XIX əsrin ikinci yarısından etibarən Cənubi Qafqazda maarifçilik hərəkatı geniş vüsət aldı. Regionda dünyəvi təhsil verən yeni tipli məktəbin – İrəvan Müəllimlər Seminariyasının açılması da məhz bu vaxtlara təsadüf edir. 1881-ci ilin noyabrında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hökumətinin bölgədəki maraqları naminə yaradılmasına

baxmayaraq, 40 ilə yaxın bir müddətdə hazırladığı, müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksək ixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanmasında təqdirəlayiq xidmətlər göstərmiş, pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazmışdır". Onun ilk direktoru Yakob Şuşevski olmuşdur. Sonralar müxtəlif illərdə məktəbə A.M.Miropiyev, A.Dobrotin rəhbərlik etmişlər.

1881-ci ildən 1909-cu ilədək seminariyada M.Qazızadə həm şəriət, həm də ana dili müəllimi olmuş, 1909–1918-ci illərdə ardıcıl olaraq Rəhim Xəlilov, Həmid Şahtaxtinski, Mirzə Cabbar Məmmədzadə Azərbaycan dili müəllimi kimi fəaliyyət göstərməklə milli maarifçiliyimizin təşəkkülü prosesinə nəinki təkan vermiş, eyni zamanda onun qabaqcıl pleyadasını təşkil etmişlər.

Digər bir mühüm məsələ də o dövrdə fəaliyyət göstərmiş Qori və İrəvan müəllimlər seminariyalarının milli məktəb və pedaqoji fikir tarixində rolu haqqında paralellərin aparılmaması, əldə edilmiş ortaq dəyərlərin müəyyən edilməməsidir. Qori Müəllimlər Seminariyası 1876-cı ildə fəaliyyətə başlasa da, rus-tatar şöbəsi üç il sonra – 1879-cu ildə açılmışdır. İrəvan Müəllimlər Seminariyasının beş il sonra – 1881-ci ilin noyabrında açılması ilə azərbaycanlıların seminariyaya qəbulu və ana dilində tədris aparılması təmin olunmuşdur. Hər iki müəllimlər seminariyasının milli maarifçiliyimiz tarixində oynadığı rol bir çox parametrləri ilə diqqəti cəlb edir. Əvvəlcə onu deyək ki, Qori Seminariyasının Azərbaycan şöbəsi, onun müəllimləri, müdavimləri nədənsə daha çox tədqiq edilmiş, onların tarixi, filoloji və pedaqoji görüşləri haqqında da çoxsaylı araşdırmalar aparılmışdır. İrəvan Müəllimlər Seminariyasının, azərbaycanlı müəllim və müdavimlərinin həyatı, ictimai-pedaqoji fəaliyyətləri tarixi-pedaqoji tədqiqatlardan, sanki Ermənistan sovet məktəb tarixinin obyekti imiş kimi kənarda qalmış, yubileydən yubileyə yada düşmüşdür. Bu seminariyalar arasında aşağıdakı paralellərə diqqət yetirsək, görərik ki, **birinci,** Qori şəhəri ölkəmizdən uzaqda yerləşdiyindən, müsəlman-türk əhalisinin çox seyrək yaşadığı, qəzet və jurnalların o qədər də çox nəşr edilmədiyi, mədəni-maarif işinin, əsasən, Tiflisdə cəmləşdiyini nəzərə alsaq, seminariyanın yerləşdiyi şəhər olaraq, Azərbaycan milli maarifçiliyinin yeni mərkəzinə o qədər də çevrilməmişdi. İrəvan isə həm quberniya mərkəzi olaraq, Azərbaycan türklərinin əksəriyyət təşkil etdiyi, həm müsəlman, həm də rusdilli məktəblərin geniş şəbəkəyə malik olduğu, dövrün islahatçı ruhlu türk, fars və rusdilli mətbuat vasitələrinin geniş yayıldığı əlverişli coğrafi mövqedə yerləşməsi, nəhayət, Osmanlı və İran dövlətlərinin Rusiya imperiyasına ən yaxın müsəlman inzibati-ticarət və mədəni mərkəzlərindən biri olaraq, ona xüsusi diqqət yetirildiyi bir şəhərdə açılması milli, ictimai-maarifçi amalın formalaşmasında xüsusilə əhəmiyyətli idi.

**İkinci**, Qoridən fərqli olaraq, İrəvanda işğaladək yetkin müsəlman maarifçi mühitinin olmasını da xüsusi qeyd etməliyik. Heç təsadüfi deyil ki, məşhur maarifçi, ömrünün 10 ilini İrəvanda gimnaziya müəllimi kimi pedaqoji fəaliyyətə həsr etmiş Firudin bəy Köçərlinin gələcək fəaliyyətinə İrəvan mühiti ciddi müsbət təsir göstərmişdir. O, haqlı olaraq İrəvanı "üləma, füzəla və süəra" şəhəri adlandırmışdır [N.Mustafa., 2020]. Həm də bu dövrlə bağlı tədqiqatlarda göstərilir ki, çar Rusiyasının işğalı ərəfəsində İrəvan şəhərində hər cür işğalçı, dağıdıcı talanlara baxmayaraq, 12 məscid olmuşdur. Hər məscidin yanında bir məktəb var idi ki, burada da 221 şagird təhsil alırdı. Tədrisin məzmunu ilə bağlı aşağıdakı təsnifat da maraqlıdır.

a) Ədəbiyyat istiqamətli fənlərə dilçilik, etimologiya, sintaksis, ritorika, tarix, Quranın qiraəti daxil idi.

b) Şəriət tədris istiqamətinə 6 fənn daxil idi: ..... təsvir (Quranın şərhi, ..... hədis, praktik ilahiyyat (hüquq), .... kəlam (məntiq), .... fərs (miras hüququ), nəhayət, üsulul-fiqh (məshəb hüququ);

c) Kimya, fəlsəfə, tibb, təbiət fənləri. Təkcə fəlsəfə özündə 5 fənni birləşdirirdi: məntiq, riyaziyyat, coğrafiya və astronomiya [Rüstəmov F., 2006].

"Qafqaz təqvimi"ndə bütün Zaqafqaziyada böyük əhəmiyyətə malik məscidlər sırasında İrəvan şəhərindəki üç məscidin adı çəkilir:

1. İrəvan Zalxan məscidi;
2. Hüseynəli xanın İrəvan camisi;
3. İrəvan Novruzəli bəy məscidi [Rüstəmov F., 2006].

Beləliklə, bu dövrdə İrəvan şəhərində, eləcə də quberniyada dini təhsilin xüsusi şəbəkəsinin mövcudluğuna istinadən, İrəvanda dini maarifçiliyin yüksək səviyyəsini qeyd etməliyik. Şəhərin imkanlı maddi və dini-klerikal nümayəndələri övladlarını Bağdadda, Tehranda, İstanbulda, Nəcəfdə, Kərbəlada, Məşhəddə, Xorasanda, Təbrizdə, Qahirədə – o dövrün ən məşhur dini məktəblərində oxudurdular. Sonralar "İrəvani" təxəllüslü görkəmli alimlərin çox geniş bir nəsli formalaşmışdır. Bu dövrdə ən yüksək ali dini-elmi rütbə olan *ayətulla* adını daşıyan irəvanlı din xadimlərindən ayətulla Molla Məhəmməd Məmmədbağır oğlu İrəvani-Nəcəfi, ayətulla Seyid Abdulməcid İrəvani, ayətulla Seyid Əli İrəvani, ayətulla Mirzə Abdulhüseyn İrəvani və b. çox zəngin dini-elmi irs qoyub getmişlər.

Ayətulla Molla Məhəmməd Məhəmmədbağır oğlu İrəvani Şərqdə "Fazil İrəvani" təxəllüsü ilə məşhurdur. O, 1817-ci ildə İrəvanda doğulmuş, burada ibtidai dini təhsil aldıqdan sonra Kərbəlada ali dini təhsilə yiyələnmişdir. Sonralar Nəcəfə köçmüş, məşhur şiə müctəhidlərindən dərs almışdır. Tezliklə o, Nəcəfin ən nüfuzlu din alimlərindən olmuş, bir çox şərq ölkələrindən, o cümlədən Cənubi və Şimali Azərbaycandan gələn bir çox tələbələrə himayədarlıq etmişdir. O, uzun müddət Nəcəfin Şeyx Tusi məscidində cümə namazının baş vaizi olmuşdur. 15

iri həcmli dini-elmi kitabın müəllifidir.

Ayətulla Fazil İrəvaninin övladları Şeyx Cavad, Şeyx Mahmud, Şeyx Mürtəza da dövrünün görkəmli din xadimləri olmuş, "ayətulla" ali dini-elmi rütbəsini daşımışlar.

Fazil İrəvaninin qardaşı Şeyx Əliəsgər İrəvani isə İraqda müsəlman aləminin görkəmli elm xadimi olmuş, *ayətulla* rütbəsi daşımış, İran inqilabının rəhbəri Ayətulla Ruhulla Xomeyninin müəllimi olmuşdur. Şeyxin övladı, Höccətül-islam Hacı Şeyx Musa Nəcəfi İrəvani də görkəmli din xadimi olmuşdur. Bu sülalənin övladları bu gün də İranın və İraqın ali dini-klerikal ziyalı təbəqəsi içərisində xüsusi yer tuturlar. Bu faktlar özü də çar Rusiyasında "İrəvanda savadsızlıq hökm sürmüşdür" fikrinin reallıqdan nə qədər uzaq olmasından xəbər verir [Dövlət N., 2002].

Uzun müddət İrəvan gimnaziyasının müəllimi olmuş görkəmli maarifçi F. Köçərlinin fikirlərinə istinadən, bir daha qeyd edə bilərik ki, İ.Qaspralının başlatdığı hərəkatın o dövr üçün İrəvandakı "üsuli-cədid" maarifçi cərəyanına da təsiri böyük idi. O yazırdı: "Bizlər İsmayıl bəyi çoxdan tanıyırıq. Bizlər Zaqafqaziya darülmüəllimində təhsil aldığımız zaman onun "Tərcüman"ı başladı çıxmağa. Bizlər o vaxtlar dünyadan bixəbər idik. Kim olduğumuzu və öz vəzifələrimizi anlamazdıq". Məşhur maarifçinin vəfatı münasibəti ilə "İqbal" qəzetində çıxan xatirə məqaləsində fikirlərinə nöqtə qoyaraq deyirdi: "Məşhur "Tərcüman"ı ilə bizi ayıltdı. Bizim yatmış hisslərimizi oyadan, bizi hərəkətə gətirən, öz vəzifələrimizi bildirən, amal və fikirlərimizə qüvvət verən kişi oldu" [Əhmədov H., 2014].

**Üçüncü,** Qoridən fərqli olaraq, İrəvan müsəlman dini-klerikal maarifçi mühitinin yetkinliyi yeni tipli rusdilli dünyəvi təhsilin formalaşmasında da ciddi rol oynamışdır. Məsələn, İrəvan Müəllimlər Seminariyasının şəriət və ana dili müəllimi Axund Molla Məmmədbağır Hacı Molla Mehdi oğlu Qazızadənin dini və mütərəqqi fəaliyyəti örnək idi [Mustafa N., 2020]. O, 1813-cü ildə İrəvanda anadan olmuşdur. İlk təhsilini atası Hacı Molla Mehdi oğlu Qazızadədən almışdır. Mədrəsədə dini təhsilini başa vurduqdan sonra şərqdə elm və bilik mərkəzi kimi tanınan Nəcəfə gedərək, orada ali dini təhsil almışdır. Nəcəf şəhərindəki ali dini tədris mərkəzində on il təhsil almış, yüksək elmi və dini biliklərini daha da təkmilləşdirmişdir. Nəcəf şəhərindəki on illik təhsil dövrü Məmmədbağırın ərəb dilinin incəliklərinə və eyni zamanda, riyaziyyat sahəsində dərin biliklərə yiyələnməsinə böyük stimul vermişdir. Yeri gəlmişkən, onu da qeyd edək ki, Qazızadələr nəsli XVIII–XIX əsrlərdə nəinki Cənubi Qafqazda, hətta bütün yaxın Şərqdə tanınırdılar. Yüksək elmi və dini biliklərə malik olan Molla Məmmədbağır Qazızadə axund tituluna yiyələnmək üçün Zaqafqaziya ruhani idarəsində imtahan verərək, həmin adı almağa layiq görülmüşdü. Yeri gəlmişkən, şəriət və tatar (Azərbaycan – H.B.) dili müəllimləri əsasən ruhanilərdən, Tiflis gimnaziyası Şurasında

(sonralar bu səlahiyyət İrəvan gimnaziyasına da verilmişdi – H.B.) yoxlamadan keçməklə təyin olunurdular. Mövcud qanuna görə, qəza məktəblərinin ana dili və şəriət müəllimlərinin hüquqları bərabər deyildi. Onlar ikinci dərəcəli dövlət qulluqçuları hesab olunurdular. Bu ayrı-seçkilik yerli əhalinin dövlət məktəblərindən uzaqlaşmasına, məktəblərdə müsəlman-türk uşaqlarının sayının azlığına səbəb olurdu. M.Qazızadənin ilahiyyət və dəqiq elmlər sahəsindəki dərin biliyi, təşkilatçılıq bacarığı və istedadı, ictimai-siyasi, pedaqoji, dini fəaliyyəti həmişə onun uğurlara nail olmasına rəvac vermişdir. O, həm də qədim şərq ədəbiyyatının gözəl bilicisi idi. Axund Molla Məmmədbağır Qazızadə İrəvan progimnaziyasını da bitirmişdir. Yüksək biliyə malik olan Axund Məmmədbağır Qazızadə həm də seminariyada Azərbaycan bölməsinə rəhbərlik etmiş, 1911-ci ildə bir neçə nəfər irəvanlı müəllimin Tiflisdə Azərbaycan dilində nəşr etdirdikləri "Ana dili" dərsliyinin həmmüəlliflərindən biri olmuşdur. Aparılan araşdırmalardan məlum olur ki, seminariyanın Azərbaycan bölməsinin rəhbəri Axund Məmmədbağır Qazızadə burada şəriət dərslərinin yüksək səviyyədə keçilməsi, tədris şəraitinin yaxşılaşdırılması, soydaşlarının seminariyaya daha çox cəlb edilməsi istiqamətində böyük rol oynamışdır. Onu da qeyd edək ki, Axund Məmmədbağır Qazızadə İrəvanın ictimai-siyasi, mədəni həyatında böyük rol oynamış, demək olar ki, azərbaycanlı əhalinin hüquqlarının müdafiəsində dayanan bir şəxs olmuşdur. O, azərbaycanlı balalarının elmə, təhsilə cəlb edilməsində böyük xidmətlər göstərmişdir. Onun fədakar və qabaqcıl müəllim kimi əməyini yüksək qiymətləndirən soydaşlarımızın tələbi ilə Axund Məmmədbağır Qazızadə dövlət tərəfindən gümüş medalla təltif edilmişdir. O, 1902-ci ildə öz evində rus-tatar (azərbaycanlı) qızlar məktəbi də açmışdır.

Göründüyü kimi, yüksək ali dini təhsili ilə yanaşı, rusdilli dünyəvi təhsilə də maraq göstərmiş, hətta ənənəvi müsəlman-məscid məktəblərində dünyəvi fənlərin, eləcə də rus dilinin tədrisini yeni dövrün təbii tələbləri kimi dəyərləndirmişdir [Mustafa N., 2020].

Mirzə Məmmədvəli Qəmərlinski Molla Məmmədbağır Qazızadənin öz evində açdığı rus-Azərbaycan iki sinifli qızlar məktəbində şəriət müəllimi olmuşdur. Onun atası Əli Qəmərlinski vətənpərvər ziyalı olmuş, çar generalı rütbəsinədək yüksəlmişdir. Böyük qardaşı isə İrəvanda yüksək təhsil görmüş, 1915-ci ildə Türkiyəyə köçmüş, ordu generalı olmuşdur. Digər qardaşlarından Əli Qori Seminariyasında, Paşa, Adil və Mahmud isə İrəvanda təhsil almış, burada müəllimlik etmişlər. Məmmədvəli Qəmərlinski özü 1898-ci ildə İrəvanda rus-tatar (Azərbaycan – H.B.) məktəbini bitirmiş, 1900-cü ildə müəllimlik şəhadətnaməsi almışdır [Mustafa N., 2020].

**Dördüncü**, unutmaq olmaz ki, "Azərbaycan dili dərsliyi" layihəsi İrəvan müəllimlərinə məxsus idi. Yeni dərslik sahəsində ilk təşəbbüs İrəvan gimnazi-

yasının müəllimi Mirzə Ələkbər Elxana məxsusdur. Görkəmli təhsil tarixçisi Hüseyn Əhmədov onun haqqında yazırdı ki, o, 1880-ci ildə "Azərbaycan dili əlifbası" adlı dərslik yazmışdır. Həmin dərsliyin əlyazması M.Ə.Elxanovun çalışdığı İrəvan gimnaziyasının inspektoru tərəfindən həmin ilin noyabrında, 455 saylı rəsmi məktubla Qafqaz Tədris Dairəsinin popeçitelinə göndərilmişdir. Həmin məktubda deyilirdi: "İrəvan gimnaziyasının tatar (Azərbaycan – H.B) dili müəllimi M.Ə.Elxanov K.D.Uşinskinin "Vətən dili" dərsliyi nümunəsində tərtib etdiyi və tatar (Azərbaycan – H.B) əlifbası ilə yazılmış "Tatar (Azərbaycan – H.B) dili" dərsliyini mənə təqdim edərək, onu siz cənablara təqdim etməyi və əgər bu kitab bəyənilərsə, QTD tabeliyində olan və tatar (Azərbaycan – H.B) dili öyrədilən məktəblərdə ondan istifadə edilməsinə sərəncam verilməsini xahiş etdi [Əhmədov H., 2014].

Maraqlıdır, bu faktdan məlum olur ki, Qori Müəllimlər Seminariyasının Azərbaycan dili şöbəsinin müdiri A.O.Çernyayevski həmin dərsliyin əlyazması ilə tanış olmuş və dərsliyə 12 səhifəlik rəy yazmışdır. Sonra əlyazması İrəvan gimnaziyasının direktorunun 1882-ci il, 25 iyul tarixli məktubu ilə Sankt-Peterburqa, Rusiya Xalq Maarif Nazirliyinə göndərilmiş və tatar (Azərbaycan – H.B) dilinin tədris edildiyi məktəblərdə tədris məqsədi ilə nəşrinə icazə istənilmişdir. Çox təəssüf ki, bu dərslik paytaxtda müəmmalı şəkildə yoxa çıxmışdır. Yalnız 1883-cü ildə A.O.Çernyayevski "Vətən dili" dərsliyini nəşr etdirmişdir. Nə bilmək olar, çarizm bəlkə də bu sahədə irəvanlı türk olaraq Mirzə Ələkbər Elxanovun yox, məhz milliyyətcə rus olan A.O.Çernyayevskinin dərslik yazmasına imperiya maraqları prizmasından yanaşmış, dərslik bilərəkdən yox edilmişdır.

Bundan başqa, təhsil tariximizdən məlumdur ki, Seyid Əzim 1879-cu ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin açılmasına çox sevinir və Tiflisə gedərək, həmin şöbəyə müəllim göndərilməsini xahiş edir. Məşhur təhsil tarixçisi Hüseyn Əhmədov bu məsələ ilə bağlı yazırdı: "... bir tərəfdən Şamaxıdan qərəzçiliklə göndərilən ərizələr, bir tərəfdən də çarizmin mürtəce siyasəti onun bu faydalı təşəbbüsünə mane oldu. Ərizəsinə rədd cavabı verildi" [Əhmədov H., 2014]. Həmin vəzifəyə milliyyətcə rus olan, şamaxılı A.O.Çernyayevski təyin edildi. Hüseyn Əhmədov Seyid Əzimin Şamaxı şəhər məktəbinin birinci və ikinci sinif şagirdləri üçün tərtib etdiyi "Rəbiül-Ətfal" və "Tacül-Kütüb" (1883) adlı dərslikləri ilə bağlı yazırdı: "... hər iki dərsliyini sonralar "Müntəxəbat" adı altında yenidən işləsə də, bu dərslik də onun sağlığında işıq üzü görməmiş, ... həmin dərsliyin materiallarından Çernyayevski özünün "Vətən dili" dərsliyində istifadə etmişdir" [Əhmədov H., 2014].

Fikir verin: bir tərəfdən İrəvan gimnaziyasının müəllimi Mirzə Ələkbər Elxanovun öncə yazdığı dərslik "itkin düşür", bir tərəfdən Seyid Əzim Şirvaninin Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinə müəllim getməməsi üçün

Şamaxıdan donoslar təşkil edilir, onun əvəzinə əslən Şamaxıdan olan A.O.Çernyayevski işə götürülür, digər tərəfdən azərbaycanlı uşaqlar üçün "Vətən dili" dərsliyi məhz onun müəllifliyi ilə nəşr olunur ki, burada Seyid Əzimin "Müntəxəbatı"ndan istifadə edilməsi onu göstərir ki, çarizmin milli müəllim kadrlarının yetişməsində marağı olmamışdır. Məsələn, bu dövrdə tanınmış təhsil məmuru olan K.Yanovskinin milli məktəblərin mövcudluğu uğrunda çalışan, tədrisin ana dilində aparılmasını, rus dilinin adi tədris fənni kimi öyrənilməsi uğrunda mübarizəni "müsəlman kəm savadlılığı" kimi dəyərləndirilməsi əslində imperiya şovinizminin əlindən hər şeyin gələ biləcəyini göstərir. O, rus dilli təhsil müəssisələrinin şəbəkəsinin artırılmasının vacibliyini qeyri-rus şagirdlərin ənənəvi tədris-yaşayış mühitindən uzaqlaşmalarına, onların "mənəvi-əxlaqi vəziyyətlərinin yüksəlməsinə" kömək kimi dəyərləndirərək, "Qafqazın həssas regionu olduğu üçün daha professional tədris müəssisələrinin təşkilini" vacib hesab edirdi [Rüstəmov F., 2022].

20 il tədris dairəsinə rəhbərlik etmiş K.Yanovski yazırdı: "... nə qədər ki, dövlət təhsilinə münasibətdə vahid mövqe təmin olunmayıb, Cənubi Qafqazı, sözün əsl mənasında, bir o qədər də ruslaşmış hesab etmək olmaz [Rüstəmov F., 2022]. Hətta fikrini bir az da inkişaf etdirərək narahatlıqla bildirirdi: "Əgər effektli tədbirlər həyata keçirilməzsə, buradakı əhalinin cəhalətdə qalması və diyardakı məktəblərin düzgün qurulmaması nəticəsində əhalinin ruslardan aralanması və bununla da Cənubi Qafqazın imperiyadan tam ayrılması prosesi başlanacaqdır [Rüstəmov F., 2022].

Sonralar, SSRİ dövründə də problemin bütövlükdə Sovet imperiyası üçün xarakterikliyindən bəhs edən məşhur rus təhsil tarixçisi B.Tebiyev də bu dövrlə bağlı yazır: "...göstərilən dövrdə tədqiqatlar başlıca müddəalar üzrə bir-birini tamamlamaqla ümumi xarakter daşımışdır. Dövrün siyasi tələbləri ilə tarixi-pedaqoji tədqiqatlara "sinfi mübarizə" prizmasından yanaşılması XIX əsrin sonu, XX əsrin əvvəllərində təhsilin daha dərin qatlarının öyrənilməsinə və genezisinin tamamlanmasına mane olmaqla, sovet nəzəri və tarixi pedaqoji tədqiqatlarının prioritetini təşkil etmişdir" [Rzayev V., 2018].

İndi özünüz nəticə çıxarın: bu cür imperiya meyarlarının hakim olduğu şəraitdə qeyri-rus ziyalının "Ana dili" dərsliyini yazmasına, eləcə də onun Qori seminariyasının Azərbaycan şöbəsinə rəhbərlik etməsinə razılıq verilməsi nə dərəcədə mümkün idi ?! Göründüyü kimi, bu tendensiya sovet Rusiyası dövründə də eynən davam etmiş, hər iki fərqli siyasi quruluşlarda hakim olmuş "müsəlmanların savadsızlığı" anlayışı imperiya ambisiyalarından qaynaqlanan qeyri-obyektiv yanaşmadan başqa bir şey deyildir.

Sovet imperiyasının tənəzzül etməsi ilə yaranan demokratik və qlobal dəyişikliklərlə əlaqədar meydana çıxan yeni siyasi-tarixi reallığın paradiqması keçmiş

imperiya məkanında yaşamış xalqların tarixi kontekstində Şimali Azərbaycanda tədqiq etdiyimiz dövrdə təhsil sahəsində baş verən mürəkkəb proseslərin köklü şəkildə, əhatəli öyrənilməsinə marağı getdikcə artırır. Məhz fenomenal əhəmiyyətə malik bu proses təhsil sahəsində baş verən əsaslı dəyişikliklərin xarakterini və dinamikasını xeyli dərəcədə şərtləndirmişdir ki, bunu İrəvan Müəllimlər Seminariyasının azərbaycanlı müəllim və tələbələrinin çoxşaxəli ictimai-maarifçi fəaliyyətlərinin az öyrənilməsinə münasibətdə bir daha görürük.

Ziyalılarımızın yeni tipli milli mətbuat yaratmaqla, sonralar öz publisistik yazılarında qaldırdıqları ictimai-humanitar məzmunlu məsələlər xalqımızın tarixinə yeni istiqamət vermiş oldu. Bu dövrdə biri özbək ("Türkistan vilayətinin qəzeti"), biri "Kazak" (Dala vilayətinin qəzeti), dördü tatar ("Tonquç", "Tərcüman", "Mirad", "Nur") qəzetləri ilə bərabər, Azərbaycan dilində çıxan nəşrlərə toxunan türk təhsil tarixçisi Nadir Dövlət yazırdı: "Azərbaycanda ilk türkcə qəzeti 1875-ci ildə Bakıda Həsən bəy Məlik(ov) "Əkinçi" adı ilə çıxarmağa başladı. "Əkinçi" 1877-ci ildə, Rusiya –Türkiyə müharibəsi ərəfəsində rus hökuməti tərəfindən bağlandı. 1879-cu ildə Tiflisdə Cəlaləddin və Hacı Səid Ünsi qardaşlarının "Ziya" qəzeti və 1880-ci ildə "Ziyayi-Qafqaziyyə" məcmuələri çıxdı. "Ziya"nın 1884-cü ilə qədər 76 sayı, 1888-ci ilədək "Ziyayi-Qafqaziyyə"nin 97 sayı nəşr edildi. "Kəşkül" isə 1883–1891-ci illərdə nəşr edildi. 1903-cü ildə M.Şahtaxtinski Tiflisdə "Şərqi-Rus"u və 1904-cü ildə Əlimərdan bəy Topçubaşov Bakıda "Həyat" qəzetlərini dərc etdirirdilər. Krımda hələ qəzet-jurnal nəşrinə icazə verilmədiyi dövrdə İsmayıl bəy Qaspralı 1881-ci ildə "Tonquç"u məcmuə halında nəşr etdi. 1905-ci il inqilabından əvvəl çıxan ən təsirli qəzet isə, yuxarıda söylədiyimiz kimi, yenə İsmayıl bəy Qaspralının nəşr etdiyi "Tərcüman" oldu [Dövlət N., 2002].

Mirzə Cabbar Əsgərzadənin (Aciz) redaktorluğu ilə 1914-cü ildə çıxan "Lək-lək" jurnalı da yeni maarifçi baxışların formalaşmasında tarixi rol oynamışdır. Onun fəaliyyətindən bəhs edən İsrafil Məmmədov yazırdı: "...Lək-lək"in Daşkənddə və İstanbulda da oxucuları var idi. Deməli, "Lək-lək" bir qrup İrəvan ziyalısını əyləndirmək üçün yaradılmış adi məzkərə məcmuəsi deyil, sədası və üsyankar səsi Qafqazı aşaraq, Orta Asiya və Türkiyəyə qədər gedib çatan, geniş yayılmış, mətbuat tariximizin daha ətraflı, daha dərindən öyrənilməsinə kömək edən çox dəyərli, indi də öz əhəmiyyətini itirməyən zəngin bir ədəbi sərvət yaratmışdır [Məmmədov İ., 2002]. Bu, məşhur maarifçi Həsən bəy Zərdabinin naşiri olduğu "Əkinçi" qəzetinin başladığı yeni maarifçilik hərəkatının nəticəsi kimi də dəyərləndirilə bilər. Haqlı olaraq göstərildiyi kimi, "Əvvəlki əsrlərə nisbətən maarif və mədəniyyətin, yeni tipli məktəblərin meydana gəlməsi və tərəqqisi baxımından daha zəngin olan bu dövrün məktəb tarixi Azərbaycanda pedaqoji-elmi, ictimai fikrin inkişafında yeni mərhələ təşkil etdiyi kimi, xalq maarifi, məktəb təhsili və pedaqoji fikrin inkişafı tarixində də ayrıca mərhələ təşkil edir" [Əhmə-

dov H., 2006].

Akademik İsa Həbibbəyli bu dövrdə maarifçiliyin genezisinə toxunaraq "... Azərbaycanda maarifçilik XIX əsrin hadisəsi kimi meydana çıxmışdır" deyə yüksək dəyərləndirmə aparmışdır [Mustafa N., 2020].

Cənubi Qafqazın işğalı ilə bütün Qafqazı siyasi təsir dairəsinə daxil edən imperiyanın təhdidləri zəminində Şimali Azərbaycan cəmiyyətinin sosial-iqtisadi, siyasi-mədəni həyatında mühüm dəyişikliklər başladı. Belə ki, XIX əsrin ortalarından Şimali Azərbaycanda məktəbin əsas inkişaf tendensiyasına, xüsusiyyətlərinə və çar Rusiyasının geopolitik arenada apardığı dövlət siyasətinə müvafiq olaraq, hökumətin yeritdiyi təhsil siyasətinə münasibətlərini bildirməyə, bu sahədə əsaslı dəyişikliklərə nail olacaq işlərin proqramını müəyyənləşdirməyə çalışan maarifçilərimiz Qafqazın rus dilli, eləcə də ana dilli mətbuatında milli təəssübkeşlikdən qaynaqlanan ictimai, publisistik və maarifçi məqalələrlə çıxış etməyə başladılar. Onlar dövlətin milli ucqarlarda yeritdiyi təhsil siyasətini analitik təhlil edir, təhsilin yaxşılaşmasına, keyfiyyətcə yüksəlişinə ümid bəsləyirdilər. Bir çox maarifçilər hökumət bürokratiyasının təhsil sahəsində inhisarının ləğv olunmasını təklif edirdilər.

XX əsrin əvvəllərində mətbu orqanlarda, müəllimlərin I və II qurultaylarında, ayrı-ayrı cəmiyyətlərin, təşkilatların yığıncaqlarında hökumət rejiminin məktəb işlərində səriştəsizliyi, müsəlmanların təhsilinə ögey münasibəti, pedaqoji təşəbbüskarlığı boğması, məktəb həyatının ideologiyalaşdırılması və siyasiləşdirilməsi, xalq məktəbinin və xalq müəlliminin vəziyyətinə laqeyd münasibəti bütün kəskinliyi ilə qeyd edilirdi. Akademik Misir Mərdanov bu barədə yazırdı: "... XX əsrin əvvəllərində, təhsillə, müəllim kadrları ilə bağlı məsələlər kəskin bir durumda olarkən bunların həllinin milli birlik kontekstində həllinə nail olmaq zərurəti meydana çıxmışdı. Bu işdə tarixi hadisələr sürətləndirici rol oynamışdır" [Azərbaycan müəllimlərinin qurultayları., 2008]. Başqa sahələrdə olduğu kimi, bu sahədə də "hadisələrin sürətləndirici rolu içərisində" rəsmi siyasətin sırf müstəmləkəçi xarakter daşıması mühüm yer tuturdu.

Çar Rusiyası dövrü, xüsusilə, İrəvanın ictimai-maarifçi mühitinə dair bilavasitə araşdırmalar əsasən müstəqillik dövrünə aiddir. Bu tədqiqatlarda da həm çar, həm də sovet Rusiyasının təhsil siyasətinin müxtəlif aspektlərdən öyrənilməsinə daha çox fikir verilmiş, süquta uğramış hər iki imperiyanın ictimai-humanitar və maarif sahəsində gördüyü işlərin tənqidi təhlili kifayət qədər aparılmamışdır.

**Beşinci**, İrəvan, Qoridən fərqli olaraq, həm quberniya mərkəzi idi, həm də yeni tipli mədəni-maarif işinin, xüsusilə teatr, mətbuat, ədəbiyyat, musiqi və incəsənətin müxtəlif sahələri üzrə Təbriz–Naxçıvan–İrəvan ictimai-maarifçi mühitinin əlaqələndirmə mərkəzi idi. Görkəmli təhsil tədqiqatçısı İsrafil Məmmədov İrəvanda teatr və musiqi mədəniyyətinin yeni mərkəzlərindən, onların əhəmiyyə-

tindən bəhs edərək yazırdı: "Fransız səyyahı İan Sarden indiki Ermənistan ərazisinə, İrəvan şəhərinə 1673-cü il səfəri ilə bağlı yazdığı yol qeydlərində bəhs edirdi ki, "onlarda rəqs bir incəsənət və ya sənət kimi mövcuddur, Avropadakı teatr sənətinə oxşardır. Bu, onların operasıdır, təqdim etdikləri pyeslər həmişə məhəbbət mövzusunda olur və müsəlman əxlaqına ləkə gətirmir" [Məmmədov İ., 2002].

İlk teatr tamaşasının, Mirzə Ənqəlibin musiqi və rəsm əsərlərinin simasında İrəvan muğam və rəsm məktəblərinin mövcudluğu, eləcə də Mirzə Ələkbər Sabirin müalicəsi üçün başlanmış ianə kompaniyasına İrəvan ziyalılarının hamısının qoşulması, xüsusilə Dilicanda seminariyanın müəllimi Rəhim Xəlilovun ssenarisi əsasında xüsusi tamaşa təşkil edilməsi, Mirzə Cabbar Məmmədzadənin müşayiəti ilə bir qrup seminaristin əyləncəli-musiqili proqramla çıxış edərək, bu məqsədlə 100 manat pul toplanması və onun (digər əyalətlərin cəmində bu qədər vəsait toplanmamışdı – H.B.) Bakıya göndərilməsi, həm də görkəmli şairin müayinəsi üçün ianənin vacibliyini, yəni M.Ə.Sabirin ölkə üçün əhəmiyyətini dəyərləndirirdi. Bütün bunlar İrəvan ictimai-maarifçi mühitinin zəngin bazaya malik olmasından xəbər verirdi. İ.Məmmədov bu barədə yazırdı: "Mirzə Ələkbər Sabirin qırxı münasibətilə dostu Abbas Səhhət Qafqaz müsəlmanlarına "Yeni İrşad" qəzeti vasitəsilə müraciət ünvanladı ki, mərhumun əsərlərinin nəşri üçün ianə kampaniyasına başlayır. Təşəbbüsə ilk reaksiyanı görkəmli ziyalı Nəcəf bəy Vəzirovun qızı Sara xanım göstərdi. O, redaksiyaya 5 manat göndərdi. M. Mahmudbəyov, A.Səhhət, S.Axundov, A.Şaiq, S.Əbdürrəhmanov, F.Ağazadə və Ə.Əfəndizadə yığılan ianəyə 15 manat da əlavə etdilər. 1911-ci ilin sonuna qədər 20 manat toplandı. Sonra A.Şaiq "Nicat" qəzeti vasitəsilə, heç olmasa mərhumun ildönümünə qədər əsərlərini nəşr etdirmək üçün təkrar ianə kampaniyası başlatdı və redaksiyada "ianə dəftəri" açdılar. Cəmi 27 manat toplandı. İyulun 20-də baş verən (1912) hadisə vəziyyəti dəyişdi. İrəvan quberniyasının Dilican qəsəbəsində dincəlməkdə olan (sovet dövründə də məşhur istirahət mərkəzi, şəhər olmuşdur – H.B.) Məmmədağa Qarayev, Abdulla bəy Sübhanverdixanov, Mirzə Cabbar Məmmədzadə, İsmayıl ağa Mustafayev və Əsgər ağa Axundovun təşəbbüsü və iştirakı ilə "Axşam səbri xeyir olar" və "Qırt-qırt" pyesləri tamaşaya qoyuldu. Mirzə Cabbar Məmmədzadənin tarda müşayiəti ilə irəvanlı şagirdlər Sabirin şeirlərinə mahnılar oxudular. Tamaşadan yığılan 101 manat 19 qəpik "Hophopnamə"nin nəşri üçün Bakıya göndərildi [Məmmədov İ., 2002].

**Altıncı**, şəhər ziyalıları hamılıqla yeni ictimai-maarifçi prosesə qoşulmuşdular. Qoridə isə seminariyanın Azərbaycan bölməsinə dəstək verəcək belə ziyalı potensialı yox idi. Bütün ağırlıq seminariyanın azərbaycanlı müəllimlərinin üzərinə düşürdü. İrəvanda gimnaziya, seminariya, qız məktəbi, nəhayət, mahallar üzrə mövcud rusdilli iki və üç sinifli məktəblərin şəbəkəsi mövcud idi. Məsələn, İrəvan Quberniya Məclisinin sədri Mirzə Məmmədkərim Qazızadə başda olmaq-

la şəhərin dini və burokratik-inzibati idarələri onun ictimai-maarifçi mühitinin formalaşmasının ciddi himayəçiləri idi, yəni Qoridən fərqli olaraq, əyalət bütünlüklə yeni maarifçi prosesin fəal iştirakçısı idi.

**Yeddinci**, Qoridən fərqli olaraq İrəvanda Avropa tipli teatrın təşəkkülü, "Lək-lək" jurnalının simasında maarifçi-humanist mətbuatın mövcudluğu, ərazidə "Əkinçi", "Tərcüman", "Molla Nəsrəddin", "Füyuzat" kimi qəzet və jurnalların yayılması dövrün görkəmli maarifçilərindən olan Mirzə Cəlilin, Firudin bəy Köçərlinin, Mirzə Həsən Rüşdiyyənin bu şəhərlə, onun təhsil mühiti ilə bağlı olmaları İrəvanın yeni tipli ictimai-maarifçi mühitinin, özünəməxsus şəhər mədəniyyətinin göstəricisi idi. İsrafil Məmmədova görə, Azərbaycanda teatrın tarixi də 1882-ci ildə İrəvanda oynamış "Tamahkarlıq düşmən qazanır" tamaşası ilə qoyulmuşdur. Bu tamaşa 1882-ci il, aprelin 2-də İrəvandakı qızlar məktəbinin geniş salonunda kasıb azərbaycanlı şagirdlərin nəfinə oynanılmışdır. Üç pərdəli bu pyesi milliyətcə azərbaycanlı olan teatr həvəskarları tamaşaya qoymuşlar. Məşədi Fərəc rolunda Nəzmi, Məmmədqulu rolunda Mirzə Xəlil Hacıyev, Fətəli rolunda Rüstəmxan Abbasquluxanov, Həsən rolunda Məhəmməd adlı biri çıxış etmişlər... Pyesi 1881-ci ildə İrəvanda şəhər məktəbinin müəllimi Məşədi İsmayıl təfsilatı ilə Nəzmiyə söyləmiş, o isə əsəri səliqə ilə qələmə almış, 1900-cü ildə İrəvanda Edisson mətbəəsində Mirzə İbrahim Xəlilovun naşirliyi ilə çap etdirilmişdir [Məmmədov İ., 2002].

1825-ci ildə Peterburqda, 1877-ci ildə İranda, 1883-cü ildə Naxçıvanda, 1885-ci ildə Tiflisdə tamaşanın oynanılmasına toxunan tədqiqatçı İrəvan təhsil mühitinin fəal simalarından olan F.Köçərlinin 1890-cı il, aprelin 20-də "Kəşkül"-də dərc olunmuş məqaləsindən aşağıdakı fikirlərə istinad edir: "Bu aprelin 4-də darülmüəllimdə (İrəvan Müəllimlər Seminariyasında – H.B.) elm və kamal təhsil edən müsəlman cavanları hökumət rüsxəti ilə mərhum Mirzə Fətəli Axundovun "Məstəli şah" ünvanında tərtib etdiyi komediyanı oynayıb, cümlənin diqqət və hörmətini cəlb etdilər". Həmin məktubunda F.Köçərli bildirirdi ki, İrəvanda "Məstəli şah"ı səhnəyə çıxarmağa qadir olan həvəskar artistlər dəstəsi yanında orijinal səhnə əsərləri yazmağa qabil gənc müəlliflər də yetişmişdir. "Məstəli şah"dan sonra "Könülsüz nikah" ünvanında bir pərdə də tərtib olundu və oynandı. Məlum oldu ki, onu yazan darülmüəllimin şagirdlərindən Rzayev soyadlı bir şagirddir. Bir dərəcə razı qaldılar ki, dübarə təkrarına qayıdıb və xahişmənd oldular" [Məmmədov İ., 2002].

Teatr tariximiz üçün maraqlı olan bu fakt həm də XIX əsrin ikinci yarısında İrəvan xanlığının mərkəzində azərbaycanlıların mövqeyi, mədəni həyatı haqqında geniş təsəvvür yaratmaq, milli maarifçiliyimizin genezisini tamamlayacaq, ictimai-maarifçi hərəkatın səviyyəsi və hüdudları haqqında elmi təsəvvürlərə də işıq salmaqdadır.

**Səkkizinci**, İrəvan məktəblərinin müəllimləri, o cümlədən Mirzə Ələkbər Elxanov, Firudin bəy Köçərli, Rəhim Xəlilov, Məmmədvəli Qəmərlinski, Mirzə Kazım Əsgərzadə, Mirzə Həsən Rüşdiyyə, Molla Məşədi İsmayıl Kazımzadə, Mirzə Cabbar Əsgərzadə və Mirzə Cabbar Məmmədzadə tədris resurslarının hazırlanmasında, ana dilində tədrisin metodik bazasının yaradılmasında əsl fədakarlıq göstərmişlər. Məsələn, qeyd etdiyimiz kimi, müsəlman və dünyəvi məktəblər üçün Molla Məmmədbağır Qazızadənin İrəvanlı müəllimlərdən İsmayıl bəy Şəfibəyov, Mirzə Məhəmməd Şeyxzadə, Şeyx Hacı Mirzə Əbusəttar Kazımovla birgə hazırladıqları və 1911-ci ildə Tiflisdə nəşr etdirdikləri "Ana dili" dərsliyi, Mirzə Həsən Rüşdiyyənin Təbrizdə türkcə yazdığı "Vətən dili" dərsliyi, eləcə də Mirzə Ələkbər Elxanovun yeni dərslik layihəsi ilə bağlı xidmətlərinin məntiqi nəticəsi idi. Hələ bundan əvvəl Rəhim Xəlilovun 1899-cu ildə İrəvanda nəşr etdirdiyi "İrəvan quberniyası müsəlmanlarının məhərrəmlik təziyədarlığı" əsərinin çap edilməsi, 1907–1908-ci illərdə Məmmədvəli Qəmərlinskinin İrəvanda "Atalar sözü" kitabının təkrar nəşrini buraya əlavə etsək, İrəvan ictimai-maarifçi mühitinin metodik bazasının ciddiliyindən xəbər verirdi. Yeri gəlmişkən, Mirzə Məmmədvəli Qəmərlinski 1906-cı ildə Bakıda Müəllimlər Qurultayında İrəvanlı müəllimləri təmsil etmiş, orada görkəmli maarifçi Mirzə Ələkbər Sabirlə tanış olmuş, xalqımızın görkəmli oğlu Nəriman Nərimanovun vəsaiti ilə hər ikisi İrəvana gəlmiş, oranın təhsil mühiti ilə tanış olmuşlar. İrəvan Rimsipi qızlar məktəbi Mirzə Ələkbər Sabiri valeh etmişdir. Yeri gəlmişkən, Bakıda bu tipli məktəb görkəmli Azərbaycan mesenatı Hacı Zeynalabdin Tağıyevin səyi ilə 1901-ci ildə açılmışdır.

**Doqquzuncu**, İrəvan Müəllimlər Seminariyası təhsil şəbəkəsini təşkil edən digər təhsil müəssisələri ilə birlikdə əyalətin ictimai-maarifçi mühitini ayaqda tutaraq, "üsuli-cədid" məktəbini uğurla tədrisə daxil edirdilər. İrəvanda yeni tipli "üsuli-cədid" məktəblərinin açılmasında və sonralar Mirzə Həsən Rüşdiyyənin, onun qardaşı Mirzə Əlinin, Mirzə Kazım və Mirzə Cabbar Əsgərzadələrin və b. simasında geniş şəbəkənin formalaşdığını da xüsusi qeyd etməliyik. Bu sahədə məşhur Rusiya (türk-tatar) maarifçisi İsmayıl bəy Qasprinskinin də böyük xidmətləri qeyd edilməlidir. Yəni Qoridən fərqli olaraq, İrəvan təhsillə bağlı yeniliklərin də uğurla tətbiq edildiyi ictimai-mədəni mərkəz idi.

İsmayıl bəyin 1883-cü ildə nəşrinə başladığı "Tərcüman" qəzeti, eləcə də 1884-cü ildə Bağçasaray şəhərində açdığı "Üsuli-cədid" məktəbi yeni hərəkatın qaranquşları idi. 20 ildən sonra bu məktəblərin çar Rusiyası türkləri arasında sayı 5 mini keçmişdir [Əhmədov H., 2014]. İ.Qasprinskinin "Tərcüman" qəzeti və açdığı "üsuli-cədid" məktəblərindən qorxuya düşən çar məmurlarının narahatlığına ən bariz nümunə kimi dövrünün ali maarif məmurlarından İ.İlminski İsmayıl bəyin "Tərcüman" qəzetini çıxarmaqda məqsədinə toxunaraq Rusiya-

nın tanınmış təhsil bürokratlarından olan dostu K.Pobedanostsevə yazırdı: "1. Rusiya imperiyası içərisində yaşayan müsəlmanları islam əsaslarından ayırmadan Avropa elminə qoşmaq; 2. çoxlu müxtəlif ləhcələrdə danışan Rusiya müsəlmanlarını birləşdirmək və möhkəmləndirmək; 3. osmanlı-türk kökündən gələn bütün müsəlmanlar üçün ümumi bir dil yaratmaq. İndi nə olacaq? Bildiyimə görə, Kazanda türkcə qəzetlərin və dərs kitablarının sayı keçən ildəkinə nisbətən xeyli artmışdır. Rusiya müsəlman mədəniyyəti mərkəzinin yaranmasına imkan verməməliyik. Əks təqdirdə, müsəlmanları ruslaşdırma siyasətindən heç bir nəticə alınmaz" [Rzayev V., 2018]. Bu məktəblərin təsiri Azərbaycanda da tezliklə özünü göstərmiş, Şamaxıda Seyid Əzim Şirvani, Lənkəranda Mirzə İsmayıl Qasir, Naxçıvanda Məhəmməd Tağı Sidqi, Şuşada Mir Möhsün Nəvvab, İrəvanda və Təbrizdə Mirzə Həsən Rüşdiyyə, qardaşı Mirzə Əli və Mirzə Kazım və Mirzə Cabbar Əsgərzadələr, yeni təhsil islahatının peşəkar məktəbdarlarından idilər. Mirzə Həsən Rüşdiyyənin simasında əvvəl İrəvanda, sonralar isə İran şahı Nəsrəddin şahın dəvəti ilə İranda Rüşdiyyə məktəblərinin geniş şəbəkəsinin formalaşması Təbriz–İrəvan–Naxçıvan ictimai-maarifçi arealının formalaşmasını təmin etdi ki, burada da İrəvan ziyalılarının, o cümlədən İrəvan Müəllimlər Seminariyasının azərbaycanlı müəllim və tələbələrinin mühüm rolu olmuşdur. Bu ziyalılardan ikisi haqqında qeyd etmək bu ictimai-maarifçi prosesin nə qədər qabaqcıl kadr potensialına malik olduğunu açıq göstərirdi. Bunlardan biri Mirzə Həsən Rüşdiyyə, ikincisi isə seminariyanın Azərbaycan dili müəllimliyindən elmlər doktoru, professorluğa qədər yüksəlmiş Mirzə Cabbar Məmmədzadə idi.

Mirzə Həsən Rüşdiyyənin Təbrizdə türkcə (Azərbaycan – H.B.) yazdığı "Vətən dili" dərsliyi öz dövründə çox məşhur idi. İki hissədən ibarət dərsliyin birinci hissəsində əlifba, ikinci hissəsində tərbiyəvi hekayələr verilmişdi. İrəvan ziyalısı Mirzə Abbas Məmmədzadənin yazdığına görə, onun beş cildlik kitabı olubdur ki, onlardan dördünü təlimi-ətfal üçün (uşaqların təlimi üçün – H.B) tərtib etmişdir.

Mirzə Həsən Rüşdiyyə, onun qardaşı Mirzə Əlinin, Mirzə Kazım və Mirzə Cabbar Əsgərzadələrin, nəhayət, Molla Məhəmmədtağı Sidqinin simasında İrəvanla bərabər Təbrizdə və Naxçıvanda da yeni tipli üsuli-cədid məktəblərini inkişaf etdirməklə, həm bu coğrafi ərazidə yeni tipli mədəni-maarif istiqamətlərini müəyyən edir, həm də İrəvan–Təbriz–Naxçıvan geomədəni aspektində tarixi təşəkkülünü tamamlayırdı.

İrəvan ictimai-maarifçi mühitinin formalaşmasında seminariyanın müəllimi Mirzə Cabbar Məmmədzadənin (o, İrəvanda məşhur olan maarifçi Mirzə Abbasın – ona "fars Abbas" da deyirdilər – oğludur – H.B.) çox böyük xidmətləri vardır. İrəvanlı ziyalılardan Mirzə Cabbar Məmmədzadə 1908–1917-ci illərdə İrəvan Müəllimlər Seminariyasının müəllimi olmuş, İrəvanda geniş ictimai-maa-

rifçilik fəaliyyəti göstərmiş, 1920-ci ildən isə Bakıya köçərək, Azərbaycan Dövlət Universitetində, Azərbaycan Politexnik İnstitutunda, Azərbaycan Kooperasiya İnstitutunda Azərbaycan dili müəllimi işləmişdir. Onun "Azərbaycan dilini sərbəst öyrənən ruslar üçün" kitabı 13 dəfə nəşr olunmuşdur. Məşhur hindşünas akademik A.Şor həm ondan türk dilini öyrənmiş, həm də onun kitabını yüksək qiymətləndirmişdir. O, 1937-ci ildə "Azərbaycanda tədris metodikası tarixi" əsərinə görə pedaqoji elmlər doktoru, professor elmi adı alsa da, elə həmin ildə amansız repressiyanın qurbanı olmuşdur. Həm Mirzə Həsən Rüşdiyyənin, həm Molla Məmmədbağır Qazızadənin, həm də Mirzə Cabbar Məmmədzadənin təhsil islahatları və ana dilinin tədrisi uğrunda apardıqları maarifçi-ictimai fəaliyyətləri xüsusi tədqiqat mövzularıdır.

Hələ vaxtilə görkəmli islahatçı-ziyalı Məhəmməd ağa Şahtaxtinski "Rusiya müsəlmanları" adı altında nəşr etdirdiyi məqaləsində bəzi fikirləri yumşaldaraq imperiyanın türk-müsəlman qövmünün dini kimlikdən etnik kimliyə transformasiyasına təsirinə binaən yazırdı ki, Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi (o, F.Köçərlini və b. nəzərdə tuturdu – H.B.) müsəlmanlara rəğbət bəsləyənlərin əlindədir və İrəvan Müəllimlər Seminariyasını da buraya əlavə etsək, demək olar ki, müsəlman məktəbləri tamamilə arzu edilən, elmi cəhətdən hazırlıqlı xalq müəllimlərinin yeni dəstəsinə malik olacaqlar, çünki həm təlimin ana dilində aparılması, həm də hər iki seminariyanın simasında ana dilli təhsilin pedaqoji kadr təminatı, öz növbəsində, əlifba islahatı, nəhayət, təlimdə səs üsulunun tətbiqi zərurətini irəli sürürdü [Əhmədov H., 2014]. Sonuncu çağırışlarla İrəvan–Naxçıvan–Təbriz ictimai-maarifçi hərəkatına yeni məzmun vermiş üsuli-cədid məktəbləri hərəkatı, yuxarıda qeyd etdiyimiz kimi, çox böyük qüvvə ilə "Azərbaycan davası" adlı milli mücadilənin genezisini təmin etmiş oldu.

İrəvan Müəllimlər Seminariyasının, onun müəllim və məzunlarının elmi-pedaqoji tədqiqatlardan kənarda qalmaları, İrəvan qəza, progimnaziya, gimnaziya, Rimsipi qızlar gimnaziyası, eləcə də quberniyanın digər yerlərində rusdilli dövlət və müsəlman məktəblərinin sistemli tədqiqatlara cəlb edilməməsi, hətta Sovet dövründə də belə olması bu gün əhatəli və müqayisəli tədqiqatlara imkan vermir. Məsələn, təhsil tarixinə dair tədqiqatlarda göstərilirdi: "Sovet hakimiyyətinə qədər Azərbaycanda müəllim kadrları hazırlayan xüsusi məktəb yox idi. Bütün Zaqafqaziya üzrə müəllim kadrları hazırlayan yalnız bir məktəb var idi ki, bu da Qori Müəllimlər Seminariyasının 1879-cu ildə açılmış Azərbaycan şöbəsi idi [Bayramov H., 2015]. Halbuki, elə həmin əsərin 127-ci səhifəsində görkəmli alim qeyd edir ki, azərbaycanlılardan müəllim kadrlarının hazırlanmasında İrəvan Müəllimlər Seminariyasının böyük rolu olmuşdur. Görünür, Qori Seminariyasından fərqli olaraq, burada xüsusi Azərbaycan şöbəsinin olmaması, yalnız məsul şəxsin müəyyən edilməsi əsas götürülmüşdür, lakin fakt faktlığında qalır.

İrəvan ictimai-maarifçi mühiti yalnız müstəqillik dövründə diqqəti cəlb etmişdir.

Müasir dövrdə, ölkənin təhsil sisteminin yenidən qurulduğu şəraitdə yuxarıda sadaladığımız amillərə diqqət yetirilməsi, mütərəqqi pedaqoji ideyaların paradiqması, təhsili idarəetmənin sosial mexanizmləri, qəbul edilmiş təhsil nizamnamələri, əsasnamələr, təlimatlar və başqa qanunverici-normativ sənədlər haqqında elmi-tarixi təsəvvürə malik olmaq bu gün daha aktualdır.

Əməkdar elm xadimi, professor Fərrux Rüstəmov aşağıdakı fikirləri ilə problemin akademik şərhinə yeni məzmun gətirmişdir: “Pedaqogika tarixi köhnəlmiş, həyatın rədd etmiş olduğu müddəalar, prinsiplər, qaydalar sistemi deyil, təhsil-tərbiyə məsələlərinin müasir problemlərinin həlli üçün mühüm mənbələrdən biridir. Keçmişdə diqqət verilməyib kənara atılmış, köhnə, indiyə kimi yanlış hesab olunan ideyaların özü də bir çox hallarda müasir mütərəqqi ideyalar üçün təkanverici bünövrə rolunu oynaya bilər” [Rüstəmov F., 2006].

Güney Qafqaz təhsili ilə bağlı, eləcə də Naxçıvan – İrəvan təhsil mühitini birlikdə tədqiqata cəlb etmək baxımından Vahid Rzayev “Naxçıvanda məktəb və pedaqoji fikir” monoqrafiyasında üç əsas istiqaməti tədqiqata cəlb etməklə mühüm regional tarixi-elmi mühitini yeni milli maarifçilik kontekstində araşdırmışdır. O, Naxçıvan məscid məktəbləri və mədrəsələri, Naxçıvan xanlığının Rusiya tərəfindən işğalından sonra yeni rusdilli təhsil ənənələrinə transformasiyanın aktual istiqamətləri, Naxçıvan milli maarifçiliyinin islahatçı nümayəndəsi Məhəmməd Tağı Sidqinin üsuli-cədid tipli məktəbi və onun əsasında rus-tatar (Azərbaycan–H.B) məktəblərinin şaxələnməsi ilə XX əsrin əvvəllərində Naxçıvanda ictimai-pedaqoji mühitin başlıca tendensiyalarını göstərmişdir [Rzayev V., 2018].

Müəllif ilk dəfə olaraq İrəvan – Naxçıvan vahid geosiyasi kontekstdə İrəvan – Naxçıvan təhsil mühiti arasında maraqlı paralellər aparmaqla akademik Hüseyn Əhmədovun, akademik İsa Həbibbəylinin və bu sətirlərin müəllifinin qeyd edilən məsələ ilə bağlı ciddi əsaslandırmalarına istinadən, onlara vahid kontekstdə yanaşmış, ciddi elmi mühakimələr və qənaətlər irəli sürmüşdür.

## Nəticə / Conclusion

Bu nəticəyə gəlirik ki, İrəvan təhsil mühiti Naxçıvan və Təbriz təhsil mühiti ilə qarşılıqlı əlaqədə öyrənilməklə cənublu-şimallı Azərbaycanı bir-birinə bağlayan geopolitik Təbriz–İrəvan–Naxçıvan xəttini aradan qaldırmaq, çarizmin bu əraziləri asanlıqla ruslaşdırma siyasətinə tabe etdirilməsi niyyətini ortaya qoymuş olurdu. Beləliklə, digər xanlıqlara qarşı da eyni siyasətin tətbiq edilməsi təhlükəsindən başqa, həm də bu xanlıqların simasında mövcud dini-bürokratik elitanın mütiləşdirilməsi ilə şərq təhsil ənənələrindən Avropa təhsil ənənələrinə

istiqamətlənmə prosesini təmin etmək nəzərdə tutulurdu. Hər cür məkrli imperiya ambisiyalarına baxmayaraq, İrəvan ictimai-maarifçi mühitinin uğurla reallaşdırdığı Azərbaycan milli maarifçiliyi uğrunda mübarizənin aparıcı mərkəzlərindən birinə çevrildiyini göstərməklə nail olduğu tarixi-pedaqoji paradiqmanın təsdiqi idi. Bu, onların reallaşdırdıqları tarixi missiya idi...

Tədqiqatlarında İrəvan – Naxçıvan – Təbriz ictimai-maarifçi mühitini yeni prizmadan dəyərləndirən Cəfər Cəfərov və Cəlal Allahverdiyevin "Milli maarifçilik mühiti" adlı, eləcə də sonuncunun və Fərrux Rüstəmovun "İrəvan Müəllimlər Seminariyası  və onun məzunları" əsərləri, nəhayət, İrəvan ictimai-mədəni, maarifçi mühiti ilə bağlı cəfakeş ziyalılar Əsgər Zeynalovun və Nazim Mustafanın silsilə tədqiqatlarını da xüsusi qeyd etməliyik. Təkcə İrəvanla kifayətlənməyib, Qərbi Azərbaycan ictimai maarifçi mühitini araşdırmaqla onu qeyd etdiyimiz İrəvan–Naxçıvan–Təbriz ictimai – maarifçi mühitinin tərkib hissəsi kimi qeyd etmişlər.

Bu müqayisələrin təhlilində başlıca məqsəd milli maarifçiliyimizin tarixində İrəvan Müəllimlər Seminariyasının da, Qori Müəllimlər Seminariyasının da azərbaycanlı müəllim və məzunları ilə birlikdə rolunu qeyd etməkdir. Hər iki seminariya öz tarixi missiyalarını eyni səviyyədə uğurla başa çatdırmışdır. Əməkdar elm xadimi, professor Fərrux Rüstəmovun haqlı olaraq qeyd etdiyi kimi, "hər iki seminariya birlikdə Moskva Dövlət Universitetinin Rusiya üçün oynadığı rol qədər tarixi xidmətə malikdirlər".

Beləliklə, İrəvan Müəllimlər Seminariyası və digər yeni tipli məktəblərin şəbəkələşməsi təkcə ictimai-maarifçi mühitin formalaşmasını təmin etmədi, həm də ermənilərin bu ərazilərə kütləvi şəkildə köçürülməsi ilə yeni siyasi-tarixi mübarizənin mərkəzinə çevrildi. Azərbaycanlılar bu mübarizəni İrəvanda 1988-ci ilədək davam etdirdilər...

**Məqalənin aktuallığı.** Çar Rusiyasının, sonra isə Sovet dövlətinin dəstəyi ilə Azərbaycan torpaqları hesabına qondarma Ermənistan dövlətinin yaradılması nəticəsində yerli xalq olan azərbaycanlılar öz ata-baba yurdlarında təzyiqlər və təhdidlər altında yaşayırdılar. Məqalədə İrəvan Müəllimlər Seminariyasının və yeni tipli məktəblərin yaradılması, onların müəllim-tələbə heyəti haqqında məlumat verilir. İrəvan şəhərinin yalnız ictimai-maarifçi mühitin formalaşması baxımından deyil, həm də ermənilərin bu ərazilərə kütləvi şəkildə köçürülməsi ilə tarixi faktların saxtalaşdırılması və yeni siyasi-tarixi mübarizənin mərkəzinə çevrilməsini təsdiqləyən faktlar baxımından da aktualdır.

**Məqalənin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, çar Rusiyasının və Sovet dövlətinin öz tərkibində olan müsəlman xalqlara, o cümlədən Azərbaycan xalqına olan ikili münasibəti təhlil olunur, erməni-azərbaycanlı, müsəlman-xristian münasibətlərində yol verilən xristian tərəfdaşlığı, dövrün qa-

baqcıl azərbaycanlı maarifpərvərlərinin bu yolda qarşılaşdıqları problemlər, apardıqları mübarizə dəqiq tarixi faktlarla sübuta yetirilir. Təhsil tarixində bu coğrafi ərazidə yeni tipli mədəni-maarif istiqamətləri, üsuli-cədid məktəblərinin inkişafı yeni tədqiqat sahələri kimi diqqəti cəlb edir.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalə Azərbaycanın təhsil tarixi ilə maraqlanan tədqiqatçılar, elmi işçilər, müəllimlər, tələbələr üçün ətraflı məlumat mənbəyidir. Onlar bu məqalədən Azərbaycan təhsil tarixi haqqında biliklərini artırmaq, dünyagörüşlərini formalaşdırmaq üçün istifadə edə bilərlər.

## İstifadə edilmiş ədəbiyyat / References


1. Azərbaycan müəllimlərinin qurultayları. (2008). Bakı, "Çaşıoğlu", 784 s.
2. Allahverdiyev C., Cəfərov C. (2017). İrəvanda milli maarifçilik mühiti. "Şərq-Qərb", 440 s.
3. Bayramov H. (2015). Çar Rusiyasının Azərbaycandakı təhsil siyasəti: unifikasiya prosesi və tarixi-pedaqoji paradiqmanın formalaşması. (monoqrafiya). Bakı, "Elm", 368 s.
4. Əhmədov H. (2011). Azərbaycan pedaqoji antologiyası. Bakı, 543 s.
5. Əhmədov H. (2014). Azərbaycanın məktəb və pedaqoji fikir tarixi. Bakı, 432 s.
6. Əhmədov H. (2006). Seçilmiş pedaqoji əsərləri. (XII clddə). 4-cü cild. Bakı, "Təhsil-ABU", 580 s.
7. Həbibbəyli. İ. (2015). Naxçıvandan Naxçıvana. Bakı, "Elm və təhsil", 846 s.
8. Məmmədov İ. (2002). Tariximiz, torpağımız, taleyimiz. Bakı, 699 s.
9. Dövlət N. (2002). Rusiya türklərinin milli mübarizə tarixi (1905–1917). Bakı, "Ağrıdağ", 263 s.
10. Nazim Mustafa. (2020). İrəvan şəhəri. Bakı, Red N Line MMC, 292 s.
11. Rüstəmov F. (2006). Pedaqogika tarixi. Bakı, "Nurlan", 748 s.
12. Rüstəmov F. (2022). Azərbaycanlı müəllim kadrları hazırlığında İrəvan Müəllimlər Seminariyasının rolu. "Azərbaycan məktəbi" jurnalı, №1, s.105–122.
13. Rüstəmov F. (2022). İrəvan Müəllimlər Seminariyası və onun məzunları. Bakı, "Elm və təhsil".
14. Rzayev V. (2018). Naxçıvanda məktəb və pedaqoji fikir. (XIX əsr və XX əsrin əvvəlləri). Naxçıvan, 392 s.
15. Pashayev A. (1991). Ocherki istorii nachalnogo obrazovaniya na Kavkaze v XIX – nachale XX vekov. Baku, Izd-vo APİ, 214 s.
16. Tebiyev V. (1996). Na rubeje vekov. Moskva, 256 s.